# Azərbaycan MDB Oyunlarına hazırdır



**"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş" iştirakçılarının Bədən Tərbiyəsi və İdman Şurasının 2021-ci il 20 dekabr tarixli növbədənkənar iclasında III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir.**










Ötən il iyulun 10-da isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" sərəncam imzalamışdır.

Artıq bu bazar günü "Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilmiş Gəncədə yarışların açılış mərasimi keçiriləcək. Oyunlarda MDB ölkələrinin idman heyətləri ilə yanaşı, bir sıra digər ölkələrin idmançılarının da Azərbaycan hökumətinin dəvəti əsasında iştirakları gözlənilir.

Bakı Şəhər Halqasından verilən məlumata görə, yarışlara 12 ölkədən 1619 idmançı və 2313 nümayəndə qatılacaq. Daha əvvəl 10 ölkənin iştirakı nəzərdə tutulsa da, sonradan bu siyahıya Pakistan və Oman da əlavə olunub.

Turnirdə Azərbaycanı 340, Pakistanı 4, Rusiyanı 262, Özbəkistanı 254, Belarusu 240, Qazaxıstanı 147, Tacikistanı 144, Qırğızıstanı 126, Türkmənistanı 48, Türkiyəni 38, Küveyti 6, Omanı isə 4 idmançının təmsil edəcəyi dəqiqləşib.

Yarışlar 23 idman növü (kamandan oxatma, badminton, 3x3 basketbol, boks, kanoe, çövkən, qılıncoynatma, futbol U-16, yunan-Roma güləşi, cüdo, karate, bədii gimnastika, avarçəkmə, sambo, güllə atıcılığı, stend atıcılığı, üzgüçülük, stolüstü tennis, taekvondo, batut gimnastikası, voleybol, qadın güləşi, sərbəst güləş) üzrə keçiriləcək. III MDB Oyunlarının medallarının üzərində turnirin loqosu əks olunub. Bu dizayn birliyi, idman ustalığını, gücü və mübarizə ruhunu simvolizə edir.

Yarışlarda ümumilikdə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə gedəcək. Bundan əlavə, qalib komandaların uğuruna ən çox töhfə verən idmançıların xüsusi mükafatlarla təltif edilməsi nəzərdə tutulub.

III MDB Oyunlarının maskotları "Bəbir" və "Leyla"dır. Yarışlar isə "Hər qəlbdə bir qələbə" şüarı altında keçiriləcək.

Bu arada, III MDB Oyunlarının könüllüləri üçün son təlimlər davam edir. Ümumilikdə təxminən 3000 gənc bu idman tədbirinin bir hissəsinə çevriləcək. Hazırda yarışların keçiriləcəyi məkanlarda könüllülər üçün təlimlər təşkil olunur. Gəncədə sentyabrın 28-də şəhər stadionunda baş tutacaq açılış mərasimində iştirak edəcək könüllülər üçün isə xüsusi məşğələlər keçirilir.

Ən çox könüllü - 1250 nəfər Gəncə şəhərində fəaliyyət göstərəcək. Qəbələdə 600, Şəkidə 350, Mingəçevirdə 255, Yevlaxda 190, Xankəndidə 185, Göygöldə 175 könüllü cəlb olunacaq. Oyunlar zamanı onlar idman əməliyyatları, insan resurslarının və işçi qüvvəsinin idarə edilməsi, obyektlərin idarə olunması, tədbirlərin və mərasimlərin təşkili, həmçinin media əməliyyatları üzrə fəaliyyət göstərəcəklər.

Qeyd edək ki, III MDB Oyunları bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycanın 7 şəhərində - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə təşkil olunacaq. Yarışlar 12 idman məkanında keçiriləcək.

III MDB Oyunlarının bağlanış mərasimi oktyabrın 8-də Gəncə şəhər stadionunda olacaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 24 sentyabr (№ 204).- S.12.